**UOT: 821.222.1**

# QULAMHÜSEYN SAYEDİNİN MƏŞƏDİ HƏSƏN OBRAZININ İDEYASI

**Ariz TARVERDİYEV***

**Açar sözlər:** *Qulamhüseyn Sayedi, İbn Sina, Bəyəl əzadarları, Məşədi Həsən, Buveyhilər, Şahzadə Əbu Talib, inək, boantropiya*

## *XÜLASƏ*

Bu məqalədə Qulamhüseyn Sayedinin "Bəyəl əzadarları" əsərinin dördüncü hekayəsinin baş qəhrəmanı Məşədi Həsən obrazı təhlil edilir. Məşədi Həsən inəyinin qəfil ölümü ilə dərin sarsıntı keçirirərək ağır və psixotik depressiyaya məruz qalmış dəli obrazıdır. Araşdırmada tarixi mənbələrə əsasən, sözügedən obrazın Şərqin böyük loğmanı və filosofu Əbu Əli İbn Sinanın boantropiya xəstəliyindən müalicə edərək şəfa verdiyi Buveyhi Şahzadəsi Əbu Talibdən ilhamlanaraq yaradıldığı irəli sürülür.

"Bəyəl əzadarları" Qulamhüseyn Sayedinin (1936-1985) orijinal roman strukturu ilə seçilən və yazara böyük şöhrət gətirən ən məşhur hekayələr toplusudur. Bir-biri ilə üzvü surətdə bağlı olan səkkiz hekayədən ibarət əsərdə özünü passiv itaətkarlıqla taleyin hökmünə təslim etmiş cahil kəndlilərin yoxsulluq, fanatizm və qorxu girdabındakı çarəsizliyi fonunda başlarına gələn qəribə hadisələrdən bəhs edilir. Hekayə əsasında yazarın qələmə aldığı ssenari dünya şöhrətli İran rejissoru Dariuş Mehrcuyi (1939) tərəfindən 1969-cu ildə ekranlaşdırılıb. "İnək" filmi ilk neorealist ekran əsəri kimi İran kinematoqrafiyası tarixinə düşməklə nüfuzlu beynəlxalq mükafatlara layiq görülüb və bugünədək kinoşünaslar tərəfindən ən çox araşdırılmış İran filmlərindən biri hesab edilir. 1971-ci il Venesiya kinofestivalından mükafat alan film Kann, Berlin, London, Moskva və Los-Anceles festivallarında da nümayiş olunub, daha 6 yerli və xarici müsabiqədə mükafat qazanıb.

Məşədi Həsən "Bəyəl əzadarları" toplusunun sayca dördüncü hekayəsinin əsas qəhrəmanıdır. O, Bəyəldə inəyi olan yeganə şəxsdir. Məşədi Həsən məhz yeganə inəyinin sayəsində ailəsini dolandırır, yaşayışını təmin edir. Yoxsul bir kəndin sosial-iqtisadi durumunu izah edən bu fakt həm də əsərin baş qəhrəmanın sahib olduğu ən dəyərli varlığına olan ifrat bağlılığının əsas səbəblərindən biridir.

Yazıçı hekayənin elə ilk səhnəsindən qəhrəmanın inəyinə olan sevgisinə arvadı Məşədi Tubanın pərişanlığının təsviri ilə diqqət çəkir və oxucunu onun inəyinin öldüyünü öyrəndikdə hansı hissləri yaşayacağına dair təəssürata hazırlayır. Əhvalat Məşədi Həsənin arvadının sübh çağı çölə çıxması ilə başlayır. Bir qədər sonra onun qışqırtısı kənd camaatını təşvişə salır. Məşədi Tubanın fəryadının səbəbini öyrənəndə kənd əhalisi dərindən sarsılır.

"...qəfildən Məşədi Həsənin arvadının qışqırıq səslərini eşitdilər. Səs göl tərəfdən gəlirdi. Kəndxuda diksinib soruşdu: – Ağlayan kimdi? – Hə, kimsə ağlayır! – Məşədi Baba dedi. Cəld nərdivana dırmaşaraq başını bacadan çıxarıb boylandı. Məşədi Həsənin arvadının qara çadrasını boynuna dolayıb gölün kənarına sərildiyini, yumruğu ilə başına döyəcləyib zülüm-zülüm ağladığını gördü. İslam qadının bir neçə addımlığında dayanıb lal-mat ona baxırdı. – Nolub? Nə xəbərdi? – kəndxuda soruşdu. – Məşədi Həsənin arvadıdı. Gölün kənarında başına-gözünə çırpıb ağlayır, – Məşədi Baba dedi. – Niyə? – Mən hardan bilim? Yəqin, Məşədi Həsənin başına bir iş gəlib. – Mə-

* *dissertant, AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu*
*E-mail: aristarverdiyev@yahoo.com*

şədi Həsən kənddə deyil axı. Gedib Seyidabada hamballığa! Kəndxuda başını uzadıb qulaqlarını şəklədi. Məşədi Həsənin arvadı elə nalə çəkib, fəryad qoparırdı ki, kəndxuda dözməyib çölə qaçdı. Məşədi Baba olduğu yerdəcə qalıb yenidən başını bacadan uzatdı. Kəndxuda gölə çatanda bütün bəyəllilər axışıb gəlmişdi. Camaat heyrət içində gah Məşədi Həsənin arvadına, gah da bir-birilərinə baxır, nə baş verdiyini aydınlaşdıra bilmirdilər. İslam əyilib qadından tez-tez soruşurdu: – Nə xəbərdi? Nə baş verib? Qadın isə hər dəfəsində vaveyla qoparır, elə hey “Vay... Vay... Vay... Başıma kül ələndi! Evim yıxıldı! Ocağım söndü!” deyirdi (7, s.125-127).

Bəyəl camaatı daha sonra Məşədi Həsənin düşəcəyi vəziyyəti təxmin edib inəyin ölümünü ondan gizlətmək qərarına gəlir. Bu məqsədlə heyvanın leşini onun həyətində, samanlığın önündəki quyuya atıb üzərini bağlayırlar. Ona inəyinin qaçıb getdiyini deməklə həqiqətdən yayındırmaq, acı xəbərin təsirini qismən azaltmaq istəyirlər. Hesab edirlər ki, belə bir vəziyyətdə yalnız itmiş inəyinin nə vaxtsa tapılacağına inam hissi onu ayaqda saxlaya bilər.

“– Görürsən, Kəndxuda, başımıza necə kül ələndi? Görürsən, İsmayıl? Görürsən, Məşədi İslam? Görürsən qara günümü? Görürsən? – La ilahə illəllah, nə eləmək olar axı?! – Kəndxuda dedi. – Düzdür, iş-işdən keçib artıq. İndi gərək ayıq-sayıq olaq ki, Məşədi Həsən özünə bir xətər yetirməsin, – İslam dedi. İsmayıl öskürüb dedi: – Məşədi Həsəndən əlinizi üzün, bundan belə özünə gəlib yaşaya bilməz. Ondan daha adam olmaz... – Allah özü rəhm eləsin! – Məşədi Cabbar əllərini göyə açıb dedi” (7, s.133-134).

Lakin hadisələrin gedişatı kəndlilərin yanıldığını göstərir. İnəyin nəinki tələf olması, hətta qaçıb getməsi yalanı belə Məşədi Həsənin ağlını itirməsini önləyə bilmir:

“Məşədi Həsən evə girəndə Abbasla bacısının, arvadının üz-üzə oturub başlarının söhbətə qarışdığını gördü. Məşədi Həsən heybəsini yerə qoydu, çəkmələrini çıxarıb pəncərənin önünə atdı. Abbasla xoş-beş edib, üzünü arvadına tutub dedi: – İnəyə su vermisən? Məşədi Tuba dillənmədi. – Əgər mən bu xarabada olmasam, bu yazıq heyvanın susuzluqdan canı çıxmalıdı, hə? Bu sözləri deyib səkinin üzərindəki boş vedrəni götürürərək qaranəfəs gölə sarı getdi. Arabasını yuyan İslam qaytanları sıxırdı ki, gölə tərəf gələn Məşədi Həsəni gördü. Yüksək səslə “salam-əleyk” edib dedi: – Məşədi Həsən, nə vaxt gəldin? – Elə indicə gəlmişəm. Arvad inəyə su verməyib, Allahın yazıq heyvanı susuzluqdan ölür. İslam arabanı boşlayıb Məşədi Həsənə tərəf gəlib soruşdu: – İnəyə su verməyib? – Hə də, verməyib, dilsiz-ağızsız heyvan ölür təşnəlikdən... – Sən inəyi gördün? – Yox, hələ görməmişəm. Amma bilirəm indi nə haldadı. – Məgər sənə deməyib? Məşədi Həsən əlindəki vedrəni su ilə doldurub dedi: – Nəyi deməyib? İslamı öskürək tutdu. – Axı İsmayıl onu axtarmağa gedib... – Kimi axtarmağa gedib Məşədi İsmayıl? Bunu deyib tələsik evinə tərəf getməyə başladı. İslam Məşədi Həsənlə çiyin-çiyinə addımlayıb: – İnəyin dalınca gedib. Məgər sənə demədi ki, dünən gecə qaçıb gedib? – dedi. – Kim qaçıb gedib? – Heç bir şey olmayıb. Yəqin, bu həndəvərdədi. Harda olsa, tapılar, fikir eləmə! – Kim qaçıb? İsmayıl? – Yox. İnək. Sənin inəyin. Məşədi Həsən bu sözləri eşitcək, qaçmağa başladı. Qaçdıqca vedrədəki su çalxalanıb daşır, ayağını, şalvarının paçasını isladırdı. Məşədi Həsən dayanmadan fəryad çəkir: “Yalandı! İnək qaçmayıb, mənim inəyim qaçmaz!” deyirdi. – Tapılar, hökmən tapılar, tapacaqlar, elə bu gecə, həə, bu gecə tapıb gətirəcəklər, Məşədi Həsən, görəcəksən! Tövləyə çatanda hər ikisi dayandı. Məşədi Həsən vedrəni yerə qoydu. Bir qədər fikrə dalıb sonra əllərini islaq şalvarına çəkdi. Bağlı gözlərilə tövlənin qapısını aralayıb qoxladı: – Qaçmayıb! Mənim inəyim qaçmayıb! Burdadı. Yerində... Yerindədi mənim inəyim... – Düzdü, Məşədi Həsən, elədi. Narahat olma! İnək qaçmayıb! Məşədi Həsən kürəyini tövlənin qapısına dayayıb gözlərini açmadan dedi: – Hə, burdadı. İyini hiss edirsən? Burdadı... Bax, Məşədi İslam, bu suyu özün vermək istəmirsən? Savabdı ha! İslam bir qədər önə gedib dedi: – Hə, əlbəttə... Niyə verməyim ki?! Verərəm... İslam vedrəni götürüb içəri girdi. Məşədi Həsən yerindəcə dayandı, dönüb içəri boylanmağa cürət etmədi. Samanlığa doğru gedən İslamın ayaq səslərini, ağzını su vedrəsinə salıb su içən inəyin xorultusunu eşitdi. İslam çölə çıxanda Məşədi Həsən arxası tövlənin qapısına tərəf dayanmış, sevincindən hönkür-hönkür ağlayırdı” (7, s.139-142).

Məhz bu epizoddan sonra Məşədi Həsən dərin psixoloji sarsıntı keçirir. İnəyini həyatının ən önəmli varlığı kimi qəbul edən baş qəhrəman tədricən ruhi tarazlığını da itirmiş olur. Beləliklə, ya-

şadığı ağır travmanın təsiri altında öz varlığını rədd edərək inək olduğunu zənn edir. Vəziyyəti getgedə pisləşən Məşhədi Həsən tövlədə gecələyir, inək kimi saman, yonca, ot-ələfdən savayı heç nə yemir. Tövlənin damında keşik çəkən Məşədi Tuba gecə-gündüz ağlayır, ərinin bu halından daha da pərişan olur. Onun bu vəziyyəti ilk dəfə bu cür halla rastlaşan insanları qorxudur.

"Bütün gecə Bəyəlin küçələrini gəzən bir inəyin böyürtüsü hamını yuxusuz qoymuşdu. Abbas, bacısı, bir də onların evində gizlənən İsmayıl başlarını pəncərədən çıxarıb bayıra, gölün üzərində o tərəf-bu tərəfə var-gəl edən kiçik qaraltıya baxırdılar. Digər bəyəllilər də pəncərələrinin astanasında oturub gah gölə, gah da küçədə o baş-bu başa qaçan, inək səsi çıxaran iri qaraltıya tamaşa edirdilər. Səhərin gözü açılar-açılmaz Məşədi Həsən biyabandan böyürə-böyürə qaçaraq qan-tərin içində evinə doğru gəlib tövləyə girdi və başını axurun içinə soxdu. Məşədi Tuba pəncərəndən qalxıb tövlənin damına çıxdı. Başını bacanın içinə salıb boylananda qafasını axura soxub ayaqlarını yerə döyəcləyən, bir vaxtlar inəyi çölə otlamağa getmək istəyəndə böyürdüyü kimi nərə çəkən əri Məşədi Həsəni gördü" (7, s. 146-147).

Bisavad, cahil kəndlilər Məşədi Həsəni şəhərə - xəstəxanaya çatdırmaq yerinə "yenidən həyata qaytarmağa" nəticəsiz cəhdlər edir, onun inək olmağına inandırmağa çalışırlar. Kəndlilər hətta inəyin əvvəlcə tapıldığını deyir, heç bir təsiri olmadıqda heyvanın leşini quyuda basdırdıqlarını da etiraf edirlər. Amma bu cəhdin də heç birinin faydası olmur.

"Məşədi Həsən gövşəyə-gövşəyə dedi: – Mən Məşədi Həsən deyiləm, mən inəyəm! Mən Məşədi Həsənin inəyiyəm! Kürən qorxub bir addım geri çəkildi. – Belə demə, Məşədi Həsən. Sən Məşədi Həsənin özüsən. Deyilsən? – Kəndxuda dilləndi. Məşədi Həsən ayaqlarını yerə döyüb dedi: – Yox, mən Məşədi Həsən deyiləm, mən onun inəyiyəm! – Məşədi Həsən, belə sözlər danışma! Əgər puruslular duyuq düşsə, gəlib səni apararlar, – Məşədi Cabbar dedi. Abbasla Kəndxuda gülüşdülər. İslam gözlərini bərəltdi. Kürən geriyə çəkilib İslamın arxasında gizləndi. Məşədi Həsən gövşəyərək dedi: – Yox, yox, puruslular bura gələ bilməz. Məşədi Həsən damın üstündən mənə göz-qulaq olur. – Məşədi Həsən, sən Allah, əl çək bu məzhəkədən, bu nə oyundu Bəyəlin başına açıbsan? Bəsdi daha! Sən inək zad deyilsən! Sən Məşədi Həsənsən! – Kəndxuda dözməyib acıqlandı. Məşədi Həsən yenə ayaqlarını yerə döyüb dedi: – Yox, mən Məşədi Həsən deyiləm! Məşədi Həsən Seyidabada hamballığa gedib. Mən Məşədi Həsənin inəyiyəm. – La ilahə illallah! Axı sən nə sayaq inəksən, ay Məşədi Həsən?! İnəyin nəyi var səndə? Göstər görüm, hardadı quyruğun? – Aha, düz deyir, hardadı sənin quyruğun? Dırnaqların hanı bəs? – Məşədi Cabbar özündən çıxdı. Məşədi Həsən qəfildən atılıb tövlənin içində dəli kimi o baş-bu başa qaçmağa, şıllaq atmağa başladı. Məşədi Həsən bir neçə addımdan bir başını divara çırpır, əti şişə çəkilirmiş kimi bağırırdı" (5, s.150-152).

Günlərin bir günü puruslular həqiqətən də Məşədi Həsəni inək zənn edib onu oğurlamaq üçün gecə kəndə gəlirlər. Kəndxudanın iti Papax ulayaraq bütün kəndi ayağa qaldırır. Bəyəl camaatı oğruları kənddən qovur.Purus Bəyələ yaxınlıqda yerləşən, insanlarının oğurluq, yol kəsib talançılıq etməklə güzəranını keçirən tüfeylilərin kəndidir. Puruslular haqqında əsərdə detallı məlumat verilməsə də, bəyəllilər onlardan daim təşvişlə bəhs edirlər. Məlum olur ki, talançılar dəfələrlə gecələr kəndlərə basqın edib toyuq-cücə, xırda buynuz, iri buynuz əllərinə nə keçirsə, oğurlayıb Purusa aparır, quyuda gizlədirlər. Bu səbəbdən də günəş qürub edəndə gecə ilə bərabər kəndilərin canına qorxu da düşür. Bəyəl camaatı daim səksəkədə, daim gözdə-qulaqdadır. Puruslular kənddəki yeganə inəyə də göz dikməsi, onu oğurlamaq üçün münasib bir fürsət gözləməsindən qaynaqlanan həyəcan Məşədi Həsənə əlavə psixoloji təzyiq faktorudur və baş qəhrəmanın posttravmatik stress pozğunluğu fonunda bu təsirlər daha bariz şəkildə üzə çıxır:

"Məşədi Həsən yenə tövlənin içində var-gəl etməyə başladı. Bu dəfə daha cəld və daha əsəbi idi. Ağızında çeynədiklərini tüpürüb nərə çəkməyə başladı: – Ehey Məşədi Həsən, ay Məşədi Həsən! Düş aşağıya, tez gəl bura, puruslular tökülüşüblər içəri məni oğurlamaq istəyirlər. İstəyirlər məni Purusa aparıb başımı üzüb quyuya atsınlar. Ay Məşədi Həsən! Ay Məşədi Həsən! Kişilər ayağa qalxdılar. – Yaxşı, yaxşı, Məşədi Həsənin inəyi. Biz artıq gedirik. Biz puruslu deyilik. Mən İslamam, bu da Kəndxuda. Bu ikisi də Abbasla Məşədi Cabbardı. Bu uşağı da ki tanıyırsan... Biz gedirik. Sən tövlədə yat, yuxunu al. Ürəyin nəsə istəyir, gətirim? Məşədi Həsən toxtadı. Sevinərək

gövşəyə-gövşəyə dedi: – Mənə ot gətir, ələf gətir, yonca gətir, saman gətir, su gətir, su! Və sonra elə böyürməyə başladı ki, yalnız susuz bir inək bu cür böyürə bilərdi" (7, s.153-154).

Məşədi Həsən zaman keçdikcə zəifləyir, artıq insanlarla danışmır. Vəziyyətinin pərişanlığına dözməyən Məşədi İslam nəhayət ki, onu şəhərə, xəstəxanaya aparmaq qərarına gəlir. Məşədi İslam Kənduxa və Məşədi Cabbarla birlikdə Məşədi Həsəni kəndirləyib, müqavimət göstərən "inəyi" darta-darta şəhərə sarı yola düşürlər. Sonrakı epizodda İslamla Kəndxuda və Məşədi Cabbarın qürub çağına yaxın Bəyələ qayıtdıqları təsvir olunur. Məşədi Baba uzaqdan İslamı səsləyib Məşhədi Həsəndən xəbər aldıqda: -"Məşədi Həsən?... Şəhərə çatmamış...", deyib sözünün tamamlaya bilmir. Hekayənin sonunda kənddəki ab-havanı təsvir edən yazıçı "Məşədi Həsənin dul arvadı" ifadəsini işlətməklə əsərin baş qəhrəmanının taleyinə aydınlıq gətirir:

"Söyüdün kölgəsində uzanmış Papax qalxıb İslamın keçisinə qoşuldu. Camaatın arasından keçərək birinci küçəyə girdilər. Küçə sakit və kimsəsiz idi. Yalnız közərən lampasıyla tövlənin damında tək-tənha oturan Məşədi Həsənin dul arvadının ağlamaq səsi gəlirdi" (7, s. 165-166).

Yazıçı bununla Məşədi Həsənin öldüyünə işarə etsə də, hekayənin sonuncu cümləsi ilə oxucunu intizarda saxlamaqda davam edir: "Qavalın gurultusu, çəpik çalanların hay-küyü get-gedə yaxınlaşır, yavaş-yavaş yüksəlirdi. Xaraba qalmış bir tövlənin dərinliyindən naməlum bir inəyin çarəsiz iniltisi eşidilirdi" (7,s.166).

Hekayənin finalı oxucuda sual yaradır: "Məşədi Həsənin inəyi hələ də sağdırmı?" Beləliklə, yazıçı hekayənin müvafiq sonluğu ilə əsərdə mübhəm ab-hava yaratmış olur.

Sayedi sözügedən hekayə ilə bizi utopik Bəyəl kəndinin timsalında real İran kəndinin və kəndilisinin mövcud vəziyyəti ilə tanış edir. Aclıq və səfalət girdabında mental metamorfoza məruz qalan kəndli obrazı Sayedinin sosial ədalətsizliyə etirazını nümayiş etdirir. İranın tanınmış ədəbiyyatşünas alimi Əbdüləli Dəstqeyb (1961) hesab edir ki, Məşədi Həsən obrazının dəliliyi dəyərlər və sosial münasibətlər konkektstində dəyərləndirilməlidir (3, s.45). Sayedi təhkiyə etdiyi hadisələri həm də müşahidəçi kimi təsvir edir. Yazıçı mühakimə etmək hüququnu oxucunun öz hökmünə buraxır. "Çoxları gördükləri kimi təsvir edirlər. Saedi nə mühakimə edir, nə şikayətlənir, nə də yaxşı ilə pis arasında fərq qoyur. O öz hekayələrində nə fasiqləri cəzalandıran Allah, nə yol göstərən elçi, nə də etiraz insandır. O, tam əyarlı bir bəyəllidir və sadəcə müşahidə edir (2, s.529).

Bu mənada, sahib olduğu ən dəyərli varlığı – inəyini itirən sadəlövh Məşədi Həsən dünya ədəbiyyatısəviyyəsində yaradılmış ən unikal obrazlardan biri kimi dəyərləndirilməlidir. Sayedinin sözügedən əsəri kifayət qədər tədqiq edilsədə, Məşədi Həsən obrazının ideyamənşəyi haqqında ətraflı araşdırma aparılmamışdır. İxtisasca psixiatr olan Sayedi adətən öz obrazlarını müalicə və ya müşahidə etdiyi xəstələrin arasından seçir, onların posttravmatik vəziyyətlərini öz müşahidələri əsasında qələmə alırdı. Onun bir müddət fəaliyyət göstərdiyi Tehranın Ruzbeh psixiatriyaxəstəxanası bu tip obrazların seçilməsi üçün münbit bir yer idi. Lakin, nəzərə alınmalıdır ki, Sayedi bir qism obrazlarını da tarixdəki real şəxsiyyətlərin prototipi olaraq canlanlandırırdı. Məşədi Həsən obrazına gəldikdə isə demək olar ki, bütün tədqiqatçılar tərəfindən yazıçının fantastik təxəyyülünün məhsulu kimi qələmə verilmişdir. Obrazın psixo-analitik təhlili göstərir ki, Məşədi Həsən hər hansı bir sehirli və ya fövqəltəbii qüvvənin təsiri ilə deyil, güclü sosial-psixioloji təzyiqlərin nəticəsində emosional tarazlığını itirmiş və ruhən çevrilməyə məruz qalmış bir şəxsiyyətdir. Onun özünü inək zənn etməsi, başqa sözlə desək, mental olaraq "inəyə çevrilməsi" bir çox tədiqatçınınfikirlərinin əksinə olaraq,mistik bir hadisə deyil, psixiatriyada boantropiya adlandırılannadir psixi xəstəliyin patoloji təzahürüdür."Bu sindrom xəstəliyə mübtəla olmuş şəxslərin transformasiyaya məruz qaldıqlarına və ya inəyə çevrildiyinə inandıqları, xüsusən kişilərdə qeydə alınan nadir metamorfoz formasıdır" (10, s.2).

Boantropiya klinik zoantropiyanın bir növüdür və şizofreniya spektri pozğunluqları və ağır depressiyadan əziyyət çəkən xəstələrdə tez-tez müşahidə olunur. Bu termin qədim yunan dilində öküz mənasını verən*"bous"* və insan mənasını verən *"antrōpos"* sözlərinin birləşməsindən əmələ gəlmişdir. Zoantropiya isə yunan mənşəli istilah olmaqla*"Zoion"* heyvanvə *"antrōpos"*, insan sözlərinin birləşməsindən yaranıb, insanınhər hansı bir heyvana çevrilmə prosesində olduğuna və ya artıq heyvana çevrildiyinə sadəlövhcəsinə inandığı son dərəcə nadir görülən ruhi xəstəliklərə verilən

ümumi addır. Mütəxəsislərin fikrincə, zoantropiya qeyri-adi olmaqla yanaşı, çox ciddi xəstəlikdir. Bu xəstəliyin kliniki təzahürü, adətən kiminsə reallıqla əlaqəni itirdiyi zaman psixozla birlikdə özünü göstərir. Haqqında bəhs etdiyimiz Məşədi Həsənin davranışlarının təsviri zoantropiyanın bir növü olan boantropiyanın kliniki əlamətləri ilə bir-birə üst-üstə düşür.

Boantropiya psixoloji sarsıntılar nəticəsində yarananmış zehni, funksional və emosional əksiklikdir. Əsərdə inəyinin ölümü ilə dərin psixoloji sarsıntı yaşayan Məşədi Həsənin zehni və emosional, qismən də funksional naqisliyi yazıçının təsvir etdiyi son səhnələrdən aydın olur. Sayedi Məşədi Həsən obrazını müalicə etdiyi konkret bir xəstənin prototipi olaraq, ya da tarixi mənbələrdən əxz etdiyi məlum deyil. Yeri gəlmişkən, çox az sayda olsa da, tarixi mənbələrdə bu xəstəliklə bağlı qeydlərə rast gəlinir.

Belə ki, yəhudi xalqının Babil və Fars imperatorluqlarının hakimiyyəti altında olduğu dövrdən bəhs edən və peyğəmbər Daniyala aid edilən müqəddəs kitabda (Əhdi-Ətiq) yeni Babil imperiyasının qurucusu və Keldani sülaləsinin ilk hökmdarı Nabopolassarın oğlu II Novuxodnosor (e.ə.630-562) “insanlardan uzaq və mal-qara kimi ot yeyən” şəklində təsvir olunur. Bununla yanaşı, Mövlanə Cəlaləddin Ruminin “Məsnəvi” əsərində də “ruhi” və “fiziki” metamarfoza dair nümunələrin bədii formada təsvir edilir (10, s.2). Məsələn, tarixi mənbələrdə Şərqin ən məşhur təbibi və filosofu İbn Sinanın (980-1037) Buveyhilər sülaləsinə (Buveyhilər934-cü ildən 1062-ci ilə qədər əsasən İraq, mərkəzi və cənubi İran üzərində hökmranlıq edən Deylam mənşəli fars sülaləsidir) mənsub bir şahzadənin boantropiya sindromundan müalicə etdiyinə dair məlumatlar var. Sözügedən hadisə ilə bağlı məlumat verən mənbə İbn Sinanın ölümündən təqribən 100 il sonra səmərqəndli Əhməd ibn Ömər ibn Əlinin (1110-1161) Nizami təxəllüsü ilə qələmə alındığı “Çəhar məqalə” risaləsidir (8). Bu haqda digər məlumat isə farsdilli klassik sufi poeziyasının ən tanınmış simalarından biri olan Əbdürrəhman Caminin “Həft Övrəng” (“Yeddi taxt”) məsnəvi poemasında verilib (4). Qeyd edilən hər iki əsərdə Buveyhilər şahzadəsinin adı çəkilməsə də, onun davranışlarının və dolayısıyla xəstəliyin pataloji təsvirinə geniş verilir:

“Günlərin bir günü Buveyhilər xanədanının şahzadələrindən biri melanxoliyaya məruz qalır. Xəstəlik ona o qədər güclü təsir edir ki, özünü inəyə çevrilmiş kimi təsəvvür edir. Bütün günü hər kəsə: - “Mən inəyəm, kəsin məni, ətimdən yaxşı bir qulyaş hazırlasın”, -deyir. “Əgər aşpaz mənim ətimdən qulyaş bişirsəydi, cibi gümüş xəzinəyə çevrilərdi. Tez ol, boğazımı kəs, məni qəssabxanaya apar”. Şahzadə bu sözləritəkrar-təkrar sayıqlayır, gecə-gündüz inək kimi böyürür, inləyirdi. Bir müddət sonra yeməklərdən də imtina edən Şahzadəyə heç bir təbib dəva tapa bilmirdi. Həkimlərin gənc Şahzadənin düçar olduğu xəstəliyi sağalda bilməyəcəkləri məlum olduqdaŞahzadə Əlaüddövləyə (tam adı Hüsaməddin Əbu Cəfər Məhəmməd bin Düşmənziyar; 1008-1041-ci illərdə İsfahan və ona bitişik ərazilərin hökmdarı) müraciət edilir. Ondan Şahzadənin dərdinə əlacın tapılması ümidi ilə müalicənin vəziri İbn Sinaya tapşırması xahiş olunur. Beləliklə, Əlaüddövlə İbn Sina ilə danışıb onu razı salır. İbn Sina: - “Xəstəyə müjdə verin, deyin ki, qəssab səni kəsməyə gəlir”, deyə xəbər yollayıb, iki nəfərin müşayiəti ilə saraya yola düşür. Bu xəbər xəstə Şahzadəyə çatdırılanda ürəkdən sevinir. İbn Sina əlinə qəssab bıçaqlarını götürərək sarayın girişində:-“Hardadır, inək? Onu kəsməyə gəlmişəm”, deyə səslənir. Xəstə bu sözləri eşitcək, inək kimi səslər çıxarmağa başlayır. İbn Sina onu evin ortasına gətirib əl-ayağını bərk bağlamağı tapşırır. Xəstə dərhal sağ böyrü üstə itaətkarcasına uzanır. Onun əllərini və ayaqlarını kəndirlə bir-birinə bağlayırlar. İbn Sina bıçaqları bir-birinə sürtərək irəli gəlir, oturaraq, qəssabların adəti üzrə əlini xəstənin qabırğasına qoyub:- “Ey sısqa inək!”, deyir. “Səni kəsmək işə yaramaz. Ona kökələnə qədər ona yem verin. Onu bir müddət qidalandırın, heç vaxt ac qalmasına icazə verməyin. Kifayət qədər yağlı olduqda, bıçağı çəkəcəyəm ki, israf olmasın”. İbn Sina daha sonra saray xidmətçilərinə Şahzadənin əl və ayaqlarını açmağı, qarşısına yemək qoymağı tapşırır. İbn Sina Şahzadəyə: - “Bunlardan bolluca yeməlisən, çünki bu yeməklər inəkləri yaxşıca kökəldir”, - deyir. Onun əl-ayağını açıb, qarşısına yemək qoyurlar. Şahzadə ona verdikləri yeməkləri İbn Sinanın hazırladığı dərmanlarla birgə müqavimət göstərmədən yeyir. Beləliklə, saray həkimləri İbn Sinanın təlimatları ilə onu müalicə etmək üçün ciddi şəkildə çalışır və bir aydan sonra o, tamamilə sağalır (10, s.2).

İstinad edilən mənbələrdə sözügedən Şahzadənin adı çəkilməsə də, onun Buveyhihər sülaləsinə mənsub Rey hökmdarı Əli Deyləmi (Fəxrəddövlə) və Seyidə Mələk Xatunun övladı Əbu Talib Rüstəm Deyləmi (Məcdüddövlə) olduğunu ehtimal edilir. Belə ki, tarixçi Əbu Nəsr Məhəmməd ibn Məhəmməd Əl Cabbar (ö. 427/1036) "Tarix-i Yəmini" kitabında şahzadə Əbu Talibin dövründə Rey əmirliyi və ətraf bölgələr arasında davamlı çəkişmələr səbəbi ilə depressiyaya düşdüyünü, özünü hakimiyyətdən təcrid etdiyini və anasının asılılığından azad olmağa cəhd etdiyini qeyd edir (10, s.227). Bir çox mənbələr Şahzadə Əbu Talibin melanxoliyadan əziyyət əziyyət çəkəndə 21 yaşında olduğunu qeyd edir. Bu, təxminən eramızın 1014-cü və ya 1015-ci illərinə İbn Sinanın Reydə yaşadığı zamana təsadüf edir: "İbn Sina Cürcan şəhərində (təxminən 404/1014-405/1015-ci ildə) Rey şəhərinə köçərək burada hökmranlıq edən Buveyhi Məcd-əl-dövlə Rüstəm və anası Seyidənin xidmətinə qoşuldu. O, qara öd xəstəliyindən əziyyət çəkən Məcd-əl-Dövləni müalicə etdi" (11).

Şahzadə Əbu Talib atası Əli Deyləmi miladi təqvimlə 997-ci ildən vəfat edərkən onun varisi olaraq yerinə taxta keçir. Dörd yaşlı Şahzadənin yerinə anası Seyidə Mələk Xatun Rey və ətraf ərazilər hakimiyyətini öz əlinə alaraq ömrünün sonunadək oğlunun yerinə hökmdarlıq edir.1006-1007-ci illərdə Əbu Talib vəziri Əbu Əli bin Qasimin köməyi ilə anasının himayəsindən qaçmağa çalışır. Buna baxmayaraq, Seyidə Mələk Xatun Həmədan hökmdarı olan kiçik oğlu Əbu Tahir (Şəmsəddövlə) və kürd əsilli Bədr Həsənuyanın köməyi ilə hakimiyyəti ələ keçirir və Şahzadə Əbu Talib anasının əmri ilə zəncirlənərək Həmədanda, Təbərək qalasında həbs edilir. Rey əmirliyinə hökmdarlıq Əbu Tahir Şəmsəddövləyə həvalə edilir. Bir il həbsdən sonra Əbu Talibin siyasətdən uzaqlaşması şərti ilə Reyə qayıtmasına icazə verilir (6, s.578-586).

Bütün bunları nəzərə alaraq, Sayedinin boantropiya mübtəla olmuş Məşədi Həsən obrazını İbn Sinanın müalicə edərək şəfa verdiyi şahzadə Əbu Talibdən ilhamlanaraq yaratdığını ehtimal etmək mümkündür. Belə ki, Təbrizdə tibb sahəsi üzrə ali təhsil almış Sayedinin İbn Sinanın həyatı və fəaliyyəti haqqında dolğun biliklərə sahib olması şübhə doğurmur.Yazıçı öz çıxışlarında dahi loğmana istinadlar edir, onundan nümunələr gətirirdi. Sayedinin "Misir hökmdarının tatarlar diyarına səfərnaməsi" adlı hekayəsində Misir hakimi tərəfindən Əmir Teymura hədiyyə olaraq göndərilən ənam karvanındakı qeyri-adi zürafəyə hörmət əlaməti olaraq İbn Sinanın adı verilir. Təsadüfi deyil ki, Sayedi Parisdə mühacirətdə olarkən həyat yoldaşı Bədri Lənkəraniyə yazdığı məktublarından birində Əbu Əli İbn Sinanın müayinə metodlarından birini sitat nümunə gətirərək sürgündəki vəziyyətini izah etməyə çalışır. Beləliklə, Sayedinin şərqin böyük təbibi Əbu Əli İbn Sinaya xüsusi rəğbətinin oldyuğunu, onun həyatını dərindən mütaliə etdiyi aydınlaşır:

"Yəqin ki, Əbu Əlinin təbabət hekayələrini eşitmisən. O, qızdırmalı xəstəni müayinə edərkən nəbzini sayırdı. Məşuqun yaşadığı küçənin adını çəkərkən xəstənin ürək döyüntüləri artır və nə olduğunu anlayırdı. Sevgilisinin evinin ünvanın dəqiqliklə başa düşür, üstəlik onun kim olduğunu da. Bəli. Nazənin xanımım, gözəl Bədrim, mənim işim o yerə çatıb ki, əgər nəbzim döyünürsə, qəlbim dayanmayıbsa, məhz sənin adının vətənimlə eyniləşdiyindəndir" (1, s. 276).

Məşədi Həsən obrazı dünya ədəbiyyatı tarixində yardılmış ən maraqlı və fərqli obrazlardan biridir. Müəllifin boantropiya mübtəla olmuş unikal bir obrazın timsalında kəndlini dəlilik həddinə çatdıran problemlərə ustalıqla işarə edir. O, Məşədi Həsənin əsas xüsusiyyətlərini oxucuya onun düşüncə, hiss və hərəkətləri, eləcə də digər amillərlə çatdırılır. Obrazın öz dilindən deyilən fikirlər, digərlərinin onun barəsində söylədikləri həmin obraz, mühit, sosial münasibətlər və ümumilikdə dövr haqqında təsəvvür yaradır. Sayedinin simvolik olaraq təsvir etdiyi kənd əslində İranı, qorxunun, cəhalətin, yoxsulluğun psixoloji təzyiqi ilə dəlilik həddinə gəlib çatan baş qəhrəman isə İran xalqını ifadə edir. Mahiyyət etibarı ilə realizm üslubunda yazılmış əsər dövrünün sosial-siyasi naqislikləri, eləcə də xurafat və cahilliyin təsiri ilə kənd ekosisteminin böhranın bədii formada qələmə alınmış psixoanalitik təhlilidir.

Sayedinin sözgüdən hekayəsinin ideyası onun müasiri olduğu yazıçılara da öz effektiv təsirini göstərmişdir. Bu daha çox Bəhruz Abbaszadə Dehqaninin (1939-1971) "Çəyirtkələr" hekayəsində hiss olunmaqdadır. Belə ki, sözügedən hekayədə Dehqani "kəndlilərin problemlərinə dövlət idarələrinin məsuliyyətsiz yanaşmasına istehza ilə hücum edir.Bir kəndli uşağının dilindən danışılan heka-

yə kəndlilərin təbiətdən, xəstəliklərdən, mövhumatlardan və kasıblığın zülmü qarşısında aciz qalmalarından bəhs edir. Çəyirtkələr məhsula hücum etdikdə ata çarə tapmaq üçün şəhərə gedir. Amma şəhərdə onu bir idarədən digərinə göndərirlər. O, nəticəsiz kəndə qayıdanda çəyirtkələr bütün buğdanı yeyib bitirdiyini və ağlını itirmiş kənd camaatını “çəyirtkə kimi çöməlib”, atılıb-düşdüyünü görür” (5, s.115).

## ƏDƏBİYYAT


1. جمشیدی اسماعیل. گوهرمرادومرگ خودخواسته .شرح زندگی، گفتگوها وخاطرات .نشرعلم .تهران .1381.

2. جواد مجابی. شناختنامه ساعدی. تهران. نشر قطره. ۱۳۷۸

3. دستغیب عبدالعلی .نقدآثارغلامحسین ساعدی .تهران .انتشاراتچاپار1354.

4. هفتا ورنگ, .جامی عبدالرحمن بن احمد .تهران .انتشاراتمهتاب 1382

5. Mir Abidini Hasan, İran öykü ve romanının yüz yılı, II cilt, (çev.) Hicabi Kırlangıç, Ankara, Nüsha yayınları, 2002.

6. Nagel, Tilman. "BUYIDS". Encyclopædia Iranica. 1990.IV., Fasc. 6,

7. Saedi Qulamhüseyn. Bəyəl əzadarları. Fars dilindən tərcümə: Ariz Tarverdiyev. Bakı, Parlaq İmzalar, 2020.

8. نظامی .چهار مقاله .تهران .انتشاراتارمغان 1288. سمرقندی عروضی

9. Shahpesandy Homayun. Abu Ali Sina (Avicenna): Treatment of The Buyid Prince Suffering from Melancholy with Delusional Metamorphosis of Boanthropy. Int J Psychiatr Res.2020;3(1):1-4.

10. عتبی ابو نصر محمد بن عبدالجبار .تاریخ یمینی. ترجمه ابوالشرف ناصح بن ظفر بن سعد جرفادقانی .تهران چاپخانه محمد علی فردین 1334.

11. http://iranicaonline.org/articles/avicenna-ii


## *РЕЗЮМЕ*

***Ариз ТАРВЕРДИЕВ***

***Идея персонажа Голама-Хоссейна Саеди «Мешади Хасан»***


***Ключевые слова:*** *Гулам Хусейн Сайеди, Ибн Сина, плакальщицы Баял, Мешади Хасан, Бувайхиды, князь Абу Талиб, корова, боантропия*

В данной статье анализируется образ Мешади Хасана, главного героя четвертой повести Гуламхусейна Сайеди «Траур в Баяле». Мешади Хасан - сумасшедший образ, страдавший тяжелой психотической депрессией, который был глубоко потрясён внезапной смертью коровы. Согласно историческим источникам, образ был вдохновлен принцем Абу Талибом из Бувейи, которого вылечил от боантропии Абу Али Ибн Сина, великий логман и философ Востока.

***SUMMARY***


***Aris TARVERDİYEV***


***The Idea of Gholam-Hossein Saedi's 'Mashadi Hasan' Character***


**Keywords:** *Gholam-HosseinSa'edi, Ibn Sina, The Mourners of Bayal, Mashadi Hasan, Buwayhids, Prince Abu Talib, cow, boanthropy*

This article analyzes the Mashadi Hassan character, the protagonist of the fourth story in Gholam-HosseinSa'edi's wor of The Mourners of Bayal. Mashadi Hasan is a mad figure who has been deeply shaken by the sudden death of the cow and suffered from severe and psychotic depression. According to historical sources, the image was inspired by Buwayhi Prince Abu Talib, whom the great physician and philosopher of the East, Abu 'Ali al-Husayn ibn Sina, cured of Boanthropy.